Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Ermənistanın işğal siyasətini davam etdirməsi mümkünsüzləşir

**Koronavirus probleminin hələ də genişlənməkdə davam etməsi dünyanın geosiyasi və geoiqtisadi mənzərəsini də dəyişməyə doğru gedir. Artıq bu virusun yayılması fonunda dünya miqyasında bir sir çox münaqişələrin arxa plana keçməsi də özünü qabarıq şəkildə büruzə verir.**

Eyni zamanda, bunlara paralel olaraq münaqişələrin gedişində də dəyişiklik olması qaçılmaz sayılır. Qeyd edilən sıraya Dağlıq Qarabağ münaqişəsi də şamil edilir.

Ermənistanda belə hesab edilir ki, koronavirus təhdidi ölkənin çöküşünü sürətləndirdiyi və xaricdən yardımları azaltdığı üçün İrəvanın Dağlıq Qarabağ siyasətini indiki formada davam etdirməsi mümkünsüz hala gəlir. Diqqət həm də buna yönəlir ki, koronavirus qarşıdakı dövr ərzində Ermənistan kimi zəif ölkəni daha genişmiqyaslı problemlərlə üzüzə qoyacaq. Son rəsmi məlumatlara əsasən, Ermənistanda koronavirusa yoluxanların sayı 853-ə çatıb. Ölkənin səhiyyə naziri Arsen Torosyan bildirib ki, 8 pasiyentin vəziyyəti çox ağır, 35-nin durumu ağırdır. Son sutka ərzində Ermənistanda daha 20 nəfər virusa yoluxub. Bugünədək 8 nəfər pandemiyadan ölüb. Amma virusun genişlənməsi fonunda ona qarşı mübarizə Ermənistan üçün daha ciddi çətinliklər yaradır. Digər tərəfdən, mövcud durum onsuz da zəif Ermənistan iqtisadiyyatını daha sürətlə çökdürür. Ermənistan parlamentinin eks-deputatı Miqran Akopyan da bildirir ki, mövcud durumda Ermənistan vətəndaşları fəlakətə hazırlaşmalıdır:"Böhran vulqar populist olan Nikol Paşinyanın rəhbərlik etdiyi patoloji yalançıların hakimiyyəti ələ keçirdikləri zaman baş verdi. Biz 17 yaşlı bakirə kimi aldadıldıq. O zaman böhran idi, indi fəlakətin prelüdü oynanılır. Sabah isə əsl fəlakət gələcək. Yekunda elə oldu ki, biz bir gün yuxudan qalxdıq və bildik ki, Paşinyan rejimi mülki aviasiyanı məhv edib. Bəlkə də sabah yuxudan oyananda öyrənəcəyik ki, ölkədə ümumiyyətlə buğda, benzin yoxdur, bankomatlar pul vermir, Qarabağ isə Azərbaycandadır".

Amma Ermənistanda narahatlıq predmetinə çevrilən məsələ təkcə koronavirusun ölkə daxilində tüğyan etməsi ilə bağlı deyil. Koronavirus səbəbindən Ermənsitana gələn xarici yardım və ianələrin azalması da ciddi problem kimi qəbul edilir. Erməni mediası yazır ki, Qərb ölkələrindən, ABŞ-dan gələn yardımlar azalır və bu da ölkəni əsl iqtisadi fəlakətə sürükləyir. "Armenianreport" portalı qeyd edir ki, Rusiyadakı erməni biznes və lobbisinin yardımını dayandırması artıq öz mənfi təsirlərini büruzə verir. Bu durumda rus qazının qiymətinin artımına növbəti hazırlıq işğalçı ölkə üçün daha bir ciddi zərbə sayılır. Ermənistanın "Past" nəşrində dərc olunan məqalədə də qeyd olunur ki, ölkədə qazın qiyməti mövzusu ictimaiyyətin olduqca həssas olduğu məsələlərdən biridir. Bildirilir ki, qaz tarifi ciddi sosial problemlərlə bağlıdır və onun qiymətinin qaldırılması Ermənistanda zəncirvari bahalaşmalar dalğasının başlamasına səbəb ola bilər, belə olacağı təqdirdə isə insanların maddi-iqtisadi vəziyyəti daha da çətinləşəcək:"Qazın qiymətinin qaldırılması mövzusu hələ ötən ildən başlayaraq ciddi müzakirə mövzusu olub. Paşinyan bildirmişdi ki, Rusiya tərəfi ilə bu məsələ ətrafında aparılan müzakirələr nəticəsində Ermənistanın iqtisadiyyatına zərər vurmayacaq tarif müəyyənləşdirilməsi üçün razılıq əldə olunub. Lakin sosial-iqtisadi çətinliklər probleminə qazın qiymətinin bahalaşacağını əlavə etsək, əhalinin həyat tərzinin kəskin şəkildə pisləşəcəyini, sosial gərginliyin artacağını proqnozlaşdırmaq olar. Bu da təkcə iqtisadi yox, siyasi və digər istiqamətlərdə durumu çox çətinləşdirəcək". Belə vəziyyətdə erməni ekspert Ruben Tedovsyan bildirir ki, Paşinyan hakimiyyəti daxili və xarici müstəvidə böyük problemlərlə üzləşəcək:"Xarici müstəvidə daha dəhşətli hal Qarabağ məsələsi ilə bağlıdır. Bu durumda Qarabağ siyasətini davam etdirmək çox çətin olacaq".

Digər tərəfdən Qərbin, xüsusən də ABŞ-ın Ermənistanı arxa plana atması işğalçı ölkə üçün əlavə problemlər yaradır. Bu halda diqqət daha bir maraqlı məsələyə yönəldilir. Belə ki, Ermənistanın Humanitar Yardım və Ekspertiza Mərkəzinin "Facebook" səhifəsində yer alan məlumata görə, Hələbdəki Ermənistan Baş Konsulluğunda missiya həyata keçirən qrupun nümayəndəsi Arkadi Tonoyan "Danish Refugee Council" (DRC) rəhbəri xanım Brenda Flors ilə görüşüb. Görüş zamanı DRC "Mina təhlükəsi üzrə maarifləndirmə və mina qurbanlarına dəstək" proqramları çərçivəsində mümkün əməkdaşlığı müzakirə etməyi təklif edilib.

Suriyaya missiya göndərilməsi ilə bağlı çoxlu müzakirələr olub. Burada ABŞ-ın məsələyə münasibəti yenidən diqqət mərkəzində olub. Bir daha qeyd olunub ki, ABŞ Ermənistanın bu istiqamətdə addımlarından narazıdır. O da bildirilir ki, ABŞ-ın müxtəlif rəsmilərinin bu məsələyə münasibəti haqqında çox şey deyilib və bu günlərdə Ermənistan sonrakı nəticələrin şahidi olur. Əslində, Ermənistan Əsədin başçılıq etdiyi Suriyadakı minlərlə hektar ərazini minalardan təmizləməyə gedib, amma işğal altında olan Qarabağda ərazilərin minalardan təmizlənməsi üçün Amerikadan pul istəyir.

Ekspertlər ABŞ-ın Qarabağa birbaşa yardımının dayandırılmasının bunun səbəbi ola biləcəyini dəfələrlə bəyan ediblər.

Ermənistanın Avropa Seçki Partiyası da qrupun geri çağırılmasının zəruriliyini dəfələrlə bəyan edib. Partiyanın sədri Tiqran Xzmalyanın sözlərinə görə, artıq iki ildir, demək olar ki, hər gün erməni əsgər və istehkamçıların bir an öncə Suriyadan evə gətirməyə çağırırlar:"Bu hərəkət Ermənistanı qeyri-müəyyən bir mövqedə qoyur, əslində, dəfələrlə Suriyadakı vəziyyəti, hakim rejimin mövqeyini və Əsədin mövqeyini sərt şəkildə pisləyən sivil dünya, BMT, NATO, Aİ-yə qarşı çıxmış oluruq. Rus müttəfiqləri və əslində Rusiya ordusunun komandanlığı altında fəaliyyət göstərən erməni hərbi heyəti ilə bağlı həm iqtisadi, həm də geosiyasi nüanslar var və sırf bir milli qarışıqlıq yaradır. Yəni Suriyanı çoxmillətli, çoxdinli və çox mürəkkəb vətəndaş müharibəsində tərəf seçməklə, Ermənistan Yaxın Şərqdəki erməni icmalarına öz iradəsindən asılı olaraq və ya olmayaraq təhlükə yaradır. Çox təhlükəlidir".

Xzmalyan bildirib ki, verilən bəyanat nəinki yersizdir, həm də çətin bir çağırışdır:

"Ermənistanın qlobal pandemiya şəraitində nə etməli olduğuna gəldikdə, bu, erməni hərbi heyətinin Ermənistana qaytarılmasıdır. Bütün digər bəyanatlar və hərəkətlər yalnız siyasi vəziyyəti və sivil dünyada nüfuzunu pisləşdirir". Onun sözlərinə görə, buna cavab olaraq Ermənistan ABŞ yardımının azaldılması şəklində nümayişkaranə bir addım atılmasına nail oldu:"Çünki ciddi qərarlar elan edilmədən qəbul edilir və bundan sonra özümüzü absurd bir vəziyyətə salırıq. Anlamaq vacib olan bir şey var, bir çox insan koronavirusdan sonra dünyanın eyni olmayacağını söyləsə də, az adam bunun hansı mənada olacağını başa düşür. Dünya həqiqətən dəyişəcək və bu təkcə iqtisadi və siyasi dəyişikliklər deyil, dünya daha da sərtləşəcək. Ermənistanın son illərdə aldığı dəvətnamələr - qırmızı xalçalar, ABŞ Konqresində və Senatda Ermənistanın lehinə qəbul edilmiş qətnamələr bundan sonra artıq olmayacaq. Bəşəriyyət yeni sərhədlər çəkir, sərhədin bir tərəfində qızıl milyardçı deyilən ABŞ-ın tərəfdaşı bir qrup dövlət və müttəfiqləri həm fiziki, həm iqtisadi, həm də siyasi baxımdan qorunacaq bir dövlət olacaq. Sərhədin o biri tərəfində çox çətin siyasi və iqtisadi vəziyyətdə olanlar qalacaq. Ermənistanın seçim etməsinə vaxt qalmayıb. Ya sonuncu vaqona hoppanıb minməliyik və nəzakətli, firavan dövlətlər qrupuna daxil olmalıyıq və yaxud bundan sonra bizə bu imkan verilməyəcək, çünki bunu istəyənlər çoxdur. İcazə verin, bircə misal göstərim: bu günlərdə Şimali Makedoniya və Albaniya kimi ölkələr NATO və Avropa İttifaqına üzv olmağa dəvət edildi. Bu, albanları təbrik etmək üçün bir sevincdir, amma bu gün ən azı Albaniyanın yerində ola bilmək üçün bir çox imkanlarını itirən siyasi rəhbərliyimizə ictimai bir silledir". Erməni politoloq Arkadi Vardanyanın sözlərinə görə, əvvəldən Suriyaya hərbi heyət göndərmək düzgün qərar deyildi: "Biz oğlanları ora boş yerə göndərdik, bu artıq taktiki səhvdir. İkincisi, əlbəttə ki, indi amerikalılar öz problemlərindən, oradakı böyüyən vəziyyətdən narahatdırlar, buna görə də Suriyaya bir heyət göndərdiyimizi də nəzərə alaraq, Qarabağa yardımı kəsdilər".

Vardanyan qeyd edib ki, nəzərə alınmayan digər prioritet məsələlər var:"Məsələn, Qarabağda baş tutan biabırçı "seçki"lər son bir əsrdə bizə koronavirusdan daha ölümcül olan böyük bir zərafatdır. Biz, nəticələri ağır olacaq bir siyasi və mənəvi koronavirus içindəyik". İndi bütün bunlar fonunda ABŞ-ın da Ermənistana yardımı azaltması düşmən ölkəni daha çıxılmaz vəziyyətə salır. Elə bu halda da Ermənistanın işğal siyasətini davam etdirməsi daha da çətinləşir.

***Tahir TAĞIYEV***

***Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.***